


**Yaranma tarixi – 26.11.1991**
**Ərazisi –1458 км²**
**Əhalinin sayı – 44728 nəfər**
**O cümlədən:**
**Azərbaycanlı əhalisi 13257 nəfər**
***(01 yanvar 2023-ci il tarixə)***
**Əhalinin sıxlığı -1 kv.km 30 nəfər**
***(01 yanvar 2023-ci il tarixə)***

**2022-ci ilin yanvar-dekabr aylarında**
**Xocavənd Rayonunda sosial iqtisadi inkişafa dair təhlil**

**M Ə R U Z Ə S İ**

**Ümumi məhsul buraxılışı -** 2022-ci ilin yanvar-dekabr aylarında rayon iqtisadiyyatının bütün sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 21397,2 min manat təşkil etmişdir. Məhsul xidmətlərinin 21059,2 min manat (98,4%) istehsal sahələrinin, 338,0 min manat (1,6%) isə xidmət sahələrinin payına düşmüşdür. 2023-ci ilin 01 yanvar vəziyyətinə kənd təsərrüfatı sahəsində 20729,2 min manatlıq, sənayedə 330,0 min manatlıq, nəqliyyat və anbar təsərrüfatında göstərilmiş xidmətlər üzrə 338,0 min manatlıq məhsul istehsal olunmuşdur. İqtisadiyyatının bütün sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmində keçən ilin müvafiq dövrünə nisbətən 59,2% artım müşahidə olunmuşdur.

İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı diaqrammada keçən illərin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.



**Sənaye müəssisələri üzrə -** Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2022-ci ilin yanvar-dekabr aylarında 330,0 min manatlıq və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 39,4 faiz az sənaye məhsulu istehsal edilmişdir.

Sənaye məhsulunun 41,2 faizi emal sektorunda, 58,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

2023-ci ilin 01 yanvar vəziyyətinə sənaye müəssisələrində çalışan muzdlu işçilərin sayı 87 nəfər təşkil etmiş, işləyənlərin orta aylıq nominal əmək haqqı 431,2 manat olmuşdur. Sənaye müəssisələrinin iş və xidmətlərin həcmi diaqrammada keçən illərin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.




**Nəqliyyat və anbar təsərrüfatları üzrə -** 2022-ci ilin yanvar-dekabr aylarında rayonda nəqliyyat və anbar təsərrüfat müəssisələri tərəfindən göstərilmiş və istehsal olunmuş məhsulun (işin, xidmətin) həcmi faktiki qiymətlərlə 338,0 min manat olmuşdur. Muzdla işləyənlərin orta siyahı sayı 34 nəfər olmaqla orta aylıq nominal əmək haqqı 320,3 manat təşkil etmişdir.



**Kənd təsərrüfatı üzrə-** Kənd təsərrüfatında 2022-ci il ərzində məhsul buraxılışı 20729,2 min manat təşkil etmişdir. O cümlədən; 13846,0 min manat bitkiçilikdə, 6883,2 min manat heyvandarlıqda olmaqla diaqrammada keçən illərin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.




Hər il olduğu kimi cari ildə də Xocavənd rayonunun bütün təsərrüfat subyektləri üzrə bitkiçilik məhsulları istehsalına dair məlumatlar toplanaraq yekunlaşdırılmışdır. 2022-ci ilin məhsulu üçün 8088,5 hektar sahədə əkin işləri aparılmışdır. O cümlədən, 4331,4 hektar dən üçün buğda, 2907,3 hektar arpa, 15,9 hektar kartof, 13,3 hektar ərzaq üçün bostan bitkiləri, 349,7 hektar tərəvəz, 390,9 hektar yem bitkisi, 80 hektar dən üçün qarğıdalı əkilmişdir. Bundan başqa rayonda 69,4 hektar meyvə və giləmeyvə bağı mövcuddur.

Keçən illə müqayisədə əkin sahələrinin strukturu aşağıdakı kimi olmuşdur.

| | | 2021 | 2022 | Fərq | |
|---|---|---|---|---|---|
| | | | | + - | % |
| **1** | **Cəmi əkin** | **9108,5** | **8088,5** | **-1020** | **88,8** |
| | O cümlədən payızlıq dənlilər | 8450 | 7238,7 | -61,3 | 85,7 |
| | Ondan Buğda | 7300 | 4331,4 | -2968,6 | 59,3 |
| | Arpa | 1150 | 2907,3 | +1757,3 | 252,8 |
| | Qarğıdalı | 0 | 80 | +80 | 100,0 |
| **2** | **Kartof tərəvəz və bostan bitkilərinin cəmi** | **236,9** | **378,9** | **+142** | **160,0** |
| | Kartof | 30.9 | 15,9 | -15 | 51,5 |
| | Tərəvəz | 172,5 | 349,7 | +177,2 | 202,7 |
| | Bostan bitkiləri | 33,5 | 13,3 | -20,2 | 39,7 |
| **3** | **Çox illik otların cəmi** | **421,6** | **390,9** | **-30,7** | **92,7** |
| | Cari ilin çoxillik otları | 24 | 26,7 | +2,7 | 111,3 |
| | Keçmiş illərin çoxillik otları | 397,6 | 364,2 | -33,4 | 91,6 |

Əkin sahələrinin strukturu ümumi əkin sahəsinə nisbətən faizlə aşağıdakı diaqrammada öz əksini tapmışdır




2022-ci ildə rayon üzrə cəmi əkin sahələrinin 94,3 faizini taxıl və çoxillik yem bitkiləri təşkil etmişdir. 2022-ci ildə rayonda 8,8 min ton taxıl, 7,0 (o cümlədən təkrar əkindən 3,8) min ton tərəvəz, 146,3 ton bostan məhsulları, 147,6 ton kartof, 599,7 ton meyvə istehsal edilmişdir.




Kartof istehsalı
(ton)
75
71
111
172
196
299
235
245
279
286
147
2012
2013
2014
2015
2016
2017
2018
2019
2020
2021
2022


Tərəvəz və Bostanın istehsalı
(ton)
Tərəvəz
Bostan
211
69
146
184
252
191
877
263
821
345
1056
336
1159
323
1208
326
2669
358
4193
369
6975
146
2012
2013
2014
2015
2016
2017
2018
2019
2020
2021
2022

Son illərdə əsas növ kənd təsərrüfatı bitkilərinin orta məhsuldarlığı aşağıdakı kimi olmuşdur

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|---|---|---|
| Payızlıq dənlilər | 30,9 | 30,0 | 19,8 | 20,9 | 21,6 | 16,2 | 7,8 | 12,0 |
| Dənlik qarğıdalı | - | - | - | - | - | - | - | 40,0 |
| Kartof | 115,0 | 115,0 | 115,0 | 87,0 | 87,0 | 92,0 | 93,0 | 92,8 |
| Tərəvəz | 99,0 | 95,0 | 76,0 | 96,0 | 95,0 | 205,0 | 243,0 | 199,5 |
| Bostan | 117,0 | 115,0 | 115,0 | 105,0 | 105,0 | 110,0 | 110,0 | 110,0 |
| Meyvə | 36,5 | 76,7 | 74,6 | 84,0 | 82,4 | 87,9 | 89,1 | 86,4 |

Cədvəldən göründüyü kimi, Xocavənd rayonunda əkinçiliyin dəmyə növü olduğundan, son illər yay aylarının daha quraqlıq keçməsi bir çox kənd təsərrüfatı bitkilərinin, xüsusilə də, payızlıq dənlilərin məhsuldarlığının aşağı düşməsinə səbəb olmuşdur.

Görülən işlərlə yanaşı rayonda əhali tərəfindən bu il 37 qutu (703 qram) ipəkqurdu toxumu bəslənilmişdir. Tədarük edilən 1 ton 432 kiloqram barama "Azəripək" MMC-yə təhvil verilmişdir. Növbəti ilin əkini üçün rayon ərazisində 5119,4 hektar buğda, 2382,8 hektar isə arpa səpini işləri aparılmışdır.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı heyvandarlıq məhsullarının istehsalı aşağıdakı kimi olmuşdur.

| Göstəriçilər | 2021-ci il | 2022-ci il | 2022-ci ilin 2021-ci ilə nisbəti, %-lə |
|---|---|---|---|
| **Bütün təsərrüfat kateqoriyaları üzrə** | | | |
| Ət (diri çəkidə, sentner) cəmi | 8296 | 8608 | 103,8 |
| o cümlədən: | | | |
| inək əti | 3492 | 3637 | 104,2 |
| qoyun əti | 3598 | 3748 | 104,2 |
| quş əti | 1206 | 1223 | 101,4 |
| Süd (fiziki çəkidə, sentner) cəmi | 27164 | 28905 | 106,4 |
| *o cümlədən:* | | | |
| inək südü | 25651 | 27319 | 106,5 |
| qoyun südü | 1513 | 1586 | 104,8 |
| Yumurta (min ədəd) | 502 | 531 | 105,8 |
| Yun (fiziki çəkidə, sentner) | 317 | 323 | 101,9 |

Hal-hazırda rayonda mövcud mal-qaranın sayı 2065 baş, qoyun və keçinin sayı 16214 baş, bütün növdən olan quşların sayı 25177 baş təşkil edir. Son illərdə mal-qaranın baş sayının artım və azalma dinamikası aşağıdakı kimi olmuşdur.

| | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|---|---|---|---|
| İri buynuzlu mal-qara | 1966 | 2035 | 2159 | 2363 | 2126 | 2298 | 2529 | 2169 | 2065 |
| İnək və camış | 1042 | 1073 | 1117 | 1194 | 1022 | 1014 | 1129 | 1086 | 1061 |
| Qoyun və keçi | 14015 | 15200 | 16004 | 21396 | 20228 | 18280 | 19835 | 16884 | 16214 |




**Demoqrafik göstəricilər üzrə -** 2023-ci il 01 yanvar vəziyyətinə rayon əhalisinin sayı 44728 nəfərə çatmışdır ki, onlardan da 13257 nəfərini milliyətcə azərbaycanlı olan məcburi köçkün əhali təşkil edir. Rayonun azərbaycanlı əhalisinin sayında 383 nəfər artım müşahidə olunmuşdur. 2022-ci il ərzində Xocavənd rayonunda 240 nəfər doğum, 65 nəfər ölüm, 340 nəfər gəlmə, 132 nəfər isə getmə olmuşdur. Nikahların sayı 48, nikahların pozulması halı isə 5 olmuşdur.

Xocavənd rayonu üzrə 2022-ci il ərzində üçün əhalinin sayı, təbii artımı və miqrasiya hərəkəti haqqında məlumat aşağıdakı cədvəldə öz əksini tapmışdır.

| s/s | Kənd İnzibati Ərazi Dairələri | 01/01/2022 | | o cümlədən | | | | 01/01/2023 | | il ərzində | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ev təsərrüfatları və əhalinin sayı | | Doğum | Ölüm | Gəlmə | Getmə | Ev təsərrüfatları və əhalinin sayı | | Nikah | Nikahın pozulması |
| 1 | Xocavənd | 593 | 2345 | 16 | 5 | 109 | 25 | 600 | 2440 | 4 | 0 |
| 2 | Əmirallar | 548 | 2109 | 21 | 8 | 50 | 40 | 550 | 2132 | 17 | 2 |
| 3 | Qaradağlı | 492 | 1909 | 34 | 13 | 50 | 29 | 499 | 1951 | 13 | 3 |
| 4 | Tuğ | 406 | 1528 | 67 | 6 | 9 | 6 | 429 | 1592 | 0 | 0 |
| 5 | Muğanlı | 399 | 1477 | 11 | 5 | 61 | 5 | 406 | 1539 | 8 | 0 |
| 6 | Kuropatkin | 317 | 1280 | 71 | 11 | 11 | 16 | 320 | 1335 | 6 | 0 |
| 7 | Axullu | 257 | 1051 | 11 | 7 | 13 | 4 | 264 | 1064 | 0 | 0 |
| 8 | Salakətin | 137 | 519 | 2 | 5 | 17 | 0 | 140 | 533 | 0 | 0 |
| 9 | Günəşli | 114 | 431 | 7 | 3 | 6 | 4 | 115 | 437 | 0 | 0 |
| 10 | Arakül | 70 | 225 | 0 | 2 | 14 | 3 | 77 | 234 | 0 | 0 |
| Azərbaycanlı | | 3333 | 12874 | 240 | 65 | 340 | 132 | 3400 | 13257 | 48 | 5 |

Əvvəlki illərin müvafiq dövrləri ilə müqayisəli olaraq demoqrafik göstəricilər aşağıdakı kimidir.




**İnzibati xətalar üzrə** 2022-ci ildə inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan əlaqədar orqanlar tərəfindən 437 inzibati xəta aşkar edilmişdir ki, bu da 2021-ci ilə nisbətən 78,4 faiz çox olmuşdur. Barəsində inzibati xətalar haqqında işlər üzrə qərar çıxarılmış şəxslərin sayı 437 nəfər təşkil etmişdir. Onlardan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada döymə və sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirməyə görə 13 nəfər, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə 4 nəfər, tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş digər yerlərdə tütün çəkməyə görə 8 nəfər, xırda talama, yəni oğurlama, mənimsəmə, israfçılıq, qulluq mövqeyindən sui-istifadə və ya dələduzluq yolu ilə özgəsinin əmlakını talamağa görə 7 nəfər, yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması, yer təkinin və ətraf mühitin mühafizəsi üzrə standartların (normaların, qaydaların) tələblərinin pozulmasına görə 2 nəfər, məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılmasına görə 2 nəfər, yol nişanlarının və ya yolların hərəkət hissəsinin işarələrinin tələblərinə riayət edilməməsinə, yaxud nəqliyyat vasitəsinin yolların hərəkət hissələrində yerləşdirilməsi, yaxud araməsafəsi, yedəyə alma, yük daşıma, sürmə təlimi keçmə, yaşayış zonasında hərəkət etmə, əks istiqamətli hərəkət zolağına çıxmadan ötmə və ya manevr etmə qaydalarının pozulmasına, səkilərlə və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmamış hallarda yolun çiyni ilə hərəkət edilməsinə, nəqliyyat vasitələrindən bayıra hər hansı əşyanın atılmasına görə 108 nəfər, təhlükəsizlik kəmərini bağlamadan nəqliyyat vasitəsini idarə etməyə görə 31 nəfər, nəqliyyat vasitəsinə sahiblik hüququ olan şəxsin nəqliyyat vasitəsində olması halları istisna olmaqla, nəqliyyat vasitəsinin etibarnamə olmadan idarə edilməsinə görə 63 nəfər, Bu Məcəllənin 332.2-ci maddəsində nəzərdə tutulmuş xəta nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkmiş şəxsə maddi zərər vurulmasına görə 1 nəfər, nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə 4 nəfər, nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs tərəfindən nəqliyyat vasitəsini

alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə 2 nəfər, nəqliyyat vasitəsinə sahiblik hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini idarə etmək üçün idarəetmə hüququ olmayan şəxsə verilməsinə görə 7 nəfər, nəqliyyat vasitələrinin sahibləri və ya sürücüləri tərəfindən "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə nəqliyyat vasitəsini dövlət qeydiyyatından keçirmədən idarə etməyə və ya dövlət qeydiyyatından keçirilmiş nəqliyyat vasitəsi icarə və ya digər əşya hüquqlarına dair müqavilə (notarius tərəfindən təsdiq edilən müqavilələr istisna olmaqla) əsasında başqa şəxsə verildikdə onu təkrar dövlət qeydiyyatından keçirməməyə, yaxud nəqliyyat vasitəsinin geri qaytarılması barədə öhdəçiliyə əməl etməməyə və ya nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsinin rəsmiləşdirilməsi və ya girov qoyulması qaydalarını pozmağa görə 73 nəfər, nəqliyyat vasitələrinin sürücüləri tərəfindən nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına görə 47 nəfər, dayanma və ya durma qaydalarını pozmağa görə 1 nəfər, müvafiq icra hakimiyyəti orqanının *və* ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun icazəsi alınmadan Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində müəyyən edilmiş tikintisinə icazə tələb olunan tikinti obyektlərinin inşa edilməsinə görə 1 nəfər, xırda xuliqanlıq, yəni ictimai qaydanı pozan, lakin fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilməyən hərəkətlərə görə 4 nəfər, ictimai işlər növündə cəzanın və ya inzibati tənbehin həyata keçiriləcəyi yerlərinin siyahısını və həmin işlərin həyata keçirilməsi üçün zəruri olan şəxslərin sayı barədə məlumatı vaxtında müvafiq icra hakimiyyəti orqanına göndərilməməsinə, yaxud ictimai işlərin həyata keçiriləcəyi yerlərlə bağlı sorğulara vaxtında cavab verilməməsinə görə 3 nəfər, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların və bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın törədilməsinə görə inzibati cərimə istisna olmaqla, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarının qanuni qüvvəyə mindiyi gündən 3 ay müddətində qanunla müəyyən edilmiş əsaslar olmadan icra edilməməsinə görə 9 nəfər, polis işçisi və ya hərbi qulluqçu ictimai qaydanın mühafizə vəzifələrini icra edərkən, onların qanuni tələblərinə qəsdən tabe olmamağa görə 46 nəfər, vətəndaşın yaşayış yeri və olduğu yer üzrə qeydiyyatdan keçməməsinə, yaxud qeydiyyata alma və qeydiyyatdan çıxma qaydalarına əməl etməməsinə görə 1 nəfər olmaqla inzibati xəta qeydə alınmışdır.

Hesabat dövründə barəsində inzibati tənbeh tətbiq edilmiş 437 nəfərdən xəbərdarlıq edilənlər 3 nəfər, cərimə olunanlar 384 nəfər, xüsusi hüququ məhdudlaşdırılan şəxslərin sayı 5 nəfər olmuşdur. Cərimə edilən 384 nəfərdən ümumilikdə 19405,7 manat məbləğində cərimə ödənilmişdir.

**Təhsil üzrə-** Ümumtəhsil məktəblərdə 2022/2023 tədris ilində rayonda 16 dövlət gündüz ümumtəhsil müəssisəsi fəaliyyət göstərir ki, onlardan da 3 ibtidai, 2 ümumi orta, 11 tam orta məktəb olmuşdur. Ümumtəhsil məktəblərində 2153 nəfər şagird təhsil alır ki, onların da 31 nəfəri (1,4%) ibtidai məktəblərin, 40 nəfəri (1,9%) ümumi orta məktəblərin, 2082 nəfər (96,7%) şagird tam orta məktəblərin payına düşür.

| | 2015 2016 | 2017 2018 | 2018 2019 | 2019 2020 | 2020 2021 | 2021 2022 | 2022 2023 |
|---|---|---|---|---|---|---|---|
| Əyani ümumi təhsil müəssisələrinin sayı | 17 | 16 | 16 | 16 | 16 | 16 | 16 |
| *o cümlədən:* | | | | | | | |
| ibtidai | 4 | 2 | 3 | 3 | 3 | 3 | 3 |
| ümumi orta | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| tam orta | 11 | 11 | 11 | 11 | 11 | 11 | 11 |
| Əyani ümumi təhsil müəssisələrində şagirdlərin | 1921 | 2067 | 2026 | 2072 | 2200 | 2165 | 2153 |

| sayı, nəfər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| *o cümlədən:* | | | | | | | |
| ibtidai | 37 | 27 | 24 | 27 | 24 | 32 | 31 |
| ümumi orta | 47 | 42 | 42 | 38 | 42 | 40 | 40 |
| tam orta | 1837 | 1998 | 1960 | 2007 | 2134 | 2093 | 2082 |
| Əyani ümumi təhsil müəssisələrində qızların sayı, nəfər | 857 | 948 | 894 | 933 | 977 | 959 | 970 |
| Müəllimlərin sayı, nəfər | 311 | 266 | 266 | 376 | 296 | 292 | 229 |

Ümumtəhsil müəssisələrində İnformasiya və kommunikasiya texnologiyalarından və onlardan istifadə edilməsi haqqında məlumat aşağıdakı kimi olmuşdur.

| | Cəmi | Ibtidai Məktələrdə | Ümumi orta məktəblərdə | Tam orta məktəblərdə |
|---|---|---|---|---|
| Kompüterləri olan məktəblərin sayı: | 12 | - | 1 | 11 |
| Cəmi | 12 | - | 1 | 11 |
| Onlardan İnternetə çıxışı olanlar | 6 | - | - | 6 |
| Kompüterlərin sayı | 85 | - | 1 | 84 |
| İnternetə qoşulan kompüterlərin sayı | 37 | - | - | 37 |
| Müəssisələrdə internetdən istifadə etmiş şagirdlərin ümumi sayı | 419 | - | - | 419 |
| Lokal şəbəkənin mövcudluğu | 3 | - | - | 3 |
| Elektron poçtun mövcudluğu | 9 | - | 1 | 8 |
| Kompüter siniflərinin sayı | 5 | - | - | 5 |

Rayonun ümumtəhsil məktəblərində 582 nəfər çalışır və onların da 441 nəfərini və ya 75,8%-ni qadınlar təşkil edir. Müəllimlərin sayı (məktəb rəhbərlərindən başqa) 229 nəfər olmuşdur. Rayonun ümumtəhsil məktəblərində çalışan işçilərin orta aylıq əmək haqqı 568,5 manat təşkil etmişdir.

**Mədəniyyət və Turizm üzrə-** Rayon əhalisinə 15 klub və mədəniyyət evləri, 6 kitabxana xidmət göstərir. Mədəniyyət və Turizim şöbəsi işçilərinin sayı 143 nəfər olmaqla orta aylıq əmək haqqı 605,1 manat təşkil etmişdir. İşçilərinin 94 nəfəri (65,7%) qadınlardır.

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Mədəniyyət (ilin sonuna) Kütləvi kitabxanaların sayı, | 13 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| Onlardan kitab fondu ,min nüsxə ilə | 41,3 | 42,0 | 42,5 | 43,1 | 44,9 | 45,8 | 46,1 | 46,1 | 46,1 |
| Əhalinin hər 1000 nəfərinə | 949 | 979 | 985 | 993 | 1030 | 1046 | 1058 | 1058 | 1058 |
| Klub müəssisələrinin sayı | 20 | 15 | 15 | 15 | 15 | 15 | 15 | 15 | 15 |

**Səhiyyənin göstəriciləri üzrə -** Rayon Mərkəzi xəstəxanasında ümumilikdə 319 nəfər fəaliyyət göstərir. Xəstəxanada 44 həkim, əməyin gigiyenası üzrə tibb bacıları 131 nəfər, orta tibb heyəti 84 nəfər, 60 nəfər isə digər peşələr üzrə olmaqla işçi heyəti çalışır. Səhiyyə İşçilərinin 229 nəfəri (71,8%) qadınlardır.

Onların orta aylıq əmək haqqı 692,6 manat təşkil etmişdir.

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün ixtisaslardan olan həkimlərin sayı, nəfər | 34 | 31 | 31 | 30 | 29 | 25 | 22 | 18 | 18 | 18 | 44 |
| Orta tibb heyətinin sayı, | 106 | 103 | 103 | 104 | 100 | 100 | 159 | 148 | 138 | 111 | 131 |
| Xəstəxana müəssisələrinin sayı | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 2 |
| Xəstəxana çarpayılarının sayı | 180 | 180 | 180 | 180 | 180 | 180 | 180 | 180 | 180 | 180 | 295 |
| Əhaliyə ambulatoriya - poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı | 8 | 8 | 8 | 8 | 8 | 8 | 8 | 8 | 8 | 8 | 8 |

**İqtisadiyyatda işləyənlərin sayı və əmək haqqı barədə olan məlumata əsasən** 2023-ci il yanvarın 1-i vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 4 nəfər azalaraq, 1365 nəfər olmuş, onlardan 1300 nəfəri iqtisadiyyatın dövlət sektorunda, 65 nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 42,6 faizi təhsil, 1,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,4 faizi sənaye, 23,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 8,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 2,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 0,7 faizi peşə, elmi və texniki fəaliyyət, 10,4 faizi İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 0,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar. 2022-ci ilin yanvar-dekabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 24,5 faiz artaraq 631,1 manat olmuşdur. İqtisadiyyatın dövlət idarəetməsi və müdafiə; sosial təminat fəaliyyəti, təhsil fəaliyyət, eləcə də əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

**Yeni iş yerləri-** Cari ilin 01 yanvar vəziyyətinə rayonda 100 yeni iş yeri açılmışdır. Onlardan mövcud hüquqi şəxslərdə 26 nəfər, 74 nəfər isə fiziki şəxslərdə olmuşdur.

Xocavənd Rayonu üzrə 2022-ci ilin əvvəlindən yeni açılmış iş yerləri haqqında məlumatlar aşağıda göstərilən cədvəldəki kimi olmuşdur.

| Göstəricilərin adı | Cari ilin hesabat rübündə(vahid) | İlin əvvəlindən(vahid) |
|---|---|---|
| Yeni açılmış iş yerlərinin sayı | 15 | 100 |
| Hüquqi şəxslərdə üzrə yeni açılmış iş yerlərinin sayı | | 26 |
| **o cümlədən:** | | |
| Yeni yaradılmış hüquqi şəxslərdə | 0 | 0 |
| Mövcud hüquqi şəxslərdə | 3 | 26 |
| Fiziki şəxslərdə | 12 | 74 |
| Digər tədbirlər üzrə(müxtəlif beynəlxalq və yerli layihələr, mövsümü, abadlıq işləri və.s) | 12 | 74 |

Xocavənd Rayon büdcəsinin gəlirləri 2022-ci ilin yanvar-dekabr aylarında 1986,9 min manat təşkil edilmişdir. Büdcənin gəlirləri keçən ilin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.

**Rayon büdcəsinin gəlirləri, min manat**




**Xocavənd Rayon Statistika İdarəsinin rəisi** **Fərnad Tahirov**

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**XOCAVƏND RAYON STATİSTİKA İDARƏSİ**

**2022-ci ilin yanvar-dekabr aylarında**
**Xocavənd Rayonunda sosial-iqtisadi inkişafa dair təhlil**

# ***M Ə R U Z Ə S İ***

# M Ü N D Ə R İ C A T


Ümumi məhsul buraxılışı ------1

Sənaye    ------------------------ 2

Nəqliyyat və anbar  ------------ 2

Kənd təsərrüfatı  ---------------- 3-4-5-6-7

Demoqrafiya  -------------------- 7-8

İnzibati xəta ---------------------- 8-9

Təhsil  ----------------------------- 9-10

Mədəniyyət və Turizm ---------- 10

Səhiyyə  --------------------------- 10-11

İqtisadiyyatda işləyənlərin sayı və əmək haqqı barədə--11

Yeni açılmış iş yerləri  ----------  11

Büdcənin gəlirləri  ---------------  12